# "Dədə Qorqud" tankeri Xəzərdə yenidən yükdaşımalara cəlb edilib

**AZCON Holding şirkətlərindən olan ASCO-nun "Dədə Qorqud" tankeri təmir olunub.**

Təmir zamanı gəminin sualtı və suüstü hissələri, maşın şöbəsindəki mexanizmləri, baş göyərtəsi təmizlənərək rənglənib. Bundan başqa, gəmi üzrə bütün klapanlar bərpa olunub, ağac emalı, gövdə-qaynaq və elektrik-quraşdırma işləri həyata keçirilib. Tankerdə rabitə və elektroradionaviqasiya sahəsinə aid yeni avadanlıqlar quraşdırılıb. Belə ki, 1 dəst "MF/HF" tipli stasionar radiostansiya və siqnal paylayıcısı istifadəyə verilib. Həmçinin girokompas, radar və komanda yayım qurğusunun sıradan çıxmış hissələri yeniləri ilə əvəzlənib.

Təmir işləri "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılıb və prosesdən sonra tanker yenidən istismara qaytarılıb.

Məlumat üçün bildirək ki, "Dədə Qorqud" tankerinin uzunluğu 149,9, eni 17,3 metr, yükgötürmə qabiliyyəti isə 13,8 min tondur.

